## "Azərbaycan məktəbi" jurnalından

SOS media

# Uşağın şəklini paylaşmaqla onun hüququnu pozuruq



Müxtəlif sosial media platformalarında dostların azyaşlı uşaqları ilə bərabər foto və videolarına tez-tez rast gəlirik. Sevə-sevə bəyəndiyimiz həmin paylaşmaların hüquq pozuntusu olduğu haqqında fikirləşmək heç ağlımıza da gəlmir. Bizim bunları paylaşmağa haqqımız varmı?

UNICEF-in 2018-ci ildə dərc etdiyi hesabata görə, hər gün sosial mediada 175 mindən çox uşaq bu və ya başqa şəkildə öz hüquqlarının pozulması ilə üzləşir. Şübhəsiz ki, indi beş il əvvəllə müqayisədə bu rəqəm daha da böyüyüb. Ancaq təəssüf ki, bu, həmin mövzuda açıqlanan son hesabatdır. Hesabata görə, internetdən istifadənin uşaqlara verdiyi fayda ilə yanaşı, cinsi istismar, kiberzorakılıq, zərərli məzmunla üzləşmək və uşaqların şəxsi məlumatlarından sui-istifadəsi kimi bir çox mənfi tərəfləri də var.

## UNICEF-in 2018-ci ildəki hesabatına görə hər gün sosial mediada 175 mindən çox uşaq hüquqlarının pozulması ilə üzləşir

"We Are Social" platforması dünyanın müxtəlif ölkələrində internet və sosial mediadan istifadə ilə bağlı araşdırmalarla məşğuldur. Türkiyə ilə bağlı açıqlanan rəqəmləri təqdim etməklə mənzərəni canlandırmağa çalışacağıq. Həmin hesabata görə, Türkiyədə internetə çıxışı olan hər kəs orta hesabla təqribən 7,5 saat bu məkanda vaxt keçirir. Azərbaycanda da internetdən istifadənin geniş yayıldığını nəzərə alsaq bizdə də buna bənzər yüksək bir rəqəm ortalığa çıxar. Həmin araşdırmalara görə, mobil internetdən gündəlik istifadə 4 saatdan çoxdur. Sosial mediadan aktiv istifadə edən 13 yaşdan yuxarı uşaq və gənclərin sayı isə internet istifadəçilərinin 81 faizini təşkil edir.

Bu rəqəmlər eyni zamanda 18 yaşdan aşağı sosial media istifadəçilərinin hüquqlarının pozulması hallarının göstəricisidir. Burada uşaqların hüquqlarını həm valideynlər, həm məktəblər, həm də kommersiya-marketinq fəaliyyəti həyata keçirən müxtəlif subyektlər pozurlar.

BMT-yə üzv olan ölkələr UNICEF-in 2015-ci ildə dərc etdiyi əlavə sənədlə (UNCRC Müddəaları maddə 13) internetdə uşaqların hüquqlarının müdafiəsinə qoşulublar. Amma o sənədin müddəalarına əməl olunurmu?

Sosial şəbəkələrdə uşaqların hüquqları necə pozula bilər?

Əslində bu, tez-tez yol verdiyimiz xətadır və buna məhəl qoymuruq. Hər gün sosial mediada övladını çox sevən valideyn və ya müəllimlər milyonlarla uşaq fotosu və ya videosu paylaşırlar. Uşağın gələcəkdə bundan zərər görüb-görməyəcəyini düşünmədən sosial şəbəkədə ona aid görüntülərin paylaşılması ən sadə hüquq pozuntusudur.

Sosial media araşdırmaçılarının qənaətinə görə, icazəsiz paylaşmalar, onlara məqsədyönlü şərhlər yazmaq, paylaşmalarda müxtəlif dəyişikliklər etmək uşaqlara psixoloji baxımdan mənfi təsir edə bilər.

Məktəb və müəllimlərin, hətta valideynlərin razılığı ilə olsa belə, sosial media paylaşmaları uşaqların hüquqlarını poza bilər. Şagirdlərin sinif otaqlarında özəl anlarının icazəsiz qeydə alınması və minlərlə insanın əldə edə biləcəyi şəkildə sosial media platformalarında paylaşılması şəxsi hüquq və azadlıqlara ziddir.

Türkiyəli araşdırmaçı Orxan Tokerin yazdığına görə, uşağın öz ailəsi tərəfindən sosial şəbəkədə paylaşılan bir fotosunu hansısa məhsulun marketinqində reklam şəkli kimi istifadə edə bilərlər. Uşaq hüquqlarının birbaşa pozuntusu olan belə hallarda həm sosial media platforması, həm də reklamı dərc edən qurum bilavasitə məsuliyyət daşıyır. Belə situasiyalarda sosial media platformaları uşağın və ya valideynlərinin tələbi ilə foto və ya video məzmunu silməyə borcludurlar.

Uşağın razılığının alınması bu halın pozuntu faktı olduğu həqiqətini dəyişmir. Bilirik ki, "YouTube" və "TikTok" platformalarındakı uşaq videoları kommersiya məqsədilə hazırlanır və yayılır. Burada uşağın könüllü olması və ya razılıq verməsi uşaq hüququnun pozulması faktını aradan qaldırmır. 4 yaşlı uşaq onun üçün nəyin uyğun olduğunu bilmir. "Uşağın icazəsi" sizin onu internetdə kibercinayətkarların hədəfinə çevirməyiniz faktını dəyişmir. Çünki o bunu anlayacaq yaşda deyil. Yaxud ibtidai məktəbdə uşağın dərs oxumaq əvəzinə "YouTube" üçün videolar çəkdirməsi onun təhsil hüququnu pozur.

Uşağınıza aid özəl videoları sadəcə gülüş və bəyənmə xatirinə paylaşmaq yolverilməzdir. Belə videolarda uşağın etdiyi hər hansı davranış ailə daxilində unudulsa da, sosial mediada yaddan çıxmır. Beləliklə, uşağın hansısa yanlışının unudulmasının qarşısını alırsınız. Və o, uzun illər bu travma ilə yaşamalı olur.

Təbii ki, uşaqlarla bağlı paylaşmaları təkcə valideyn və müəllimlər etmir. Uşaqlar özləri də düşünmədən paylaşdıqları materiallarla kibercinayətkarların ovuna çevrilə bilərlər.



SOSİAL MEDİA

# MƏSAFƏNİ QORU

Uşaqların sosial mediadan istifadəsinə münasibətdə iki böyük qrup yaranıb. Birincilər, uşaqların bu aləmdən uzaq durmasının tərəfdarları, ikincilər isə onun faydalılığına inananlardır.

"Sosial media və uşaqlar" mövzusunda yüzlərlə məqalə yazılsa da, bu məqalələr problemin böyüklüyünü və ciddiyyətini bütün təfərrüatı ilə açıqlaya bilmir.

Rəqəmsal dünya dayanmadan dəyişir və inkişaf edir, odur ki, onun gətirdiyi faydalarla yanaşı problemləri də tam miqyasında əhatə etmək olmur. Hər gün dünyanın ayrı-ayrı nöqtələrində sosial mediada uşaqlara qarşı törədilən ayrı-seçkilik, təqib, təcavüz faktları ilə bağlı xəbərlər yayılır.

Sosial medianın son 10 ildəki inkişafı virtual aləmdə insanları bir-birinə yaxınlaşdırdığı qədər, real həyatda da uzaqlaşdırmağa nail olub. Bu məsafə bəzən o qədər böyükdür ki, valideyn bir evin içərisində, qonşu otaqda kompüter arxasındakı övladının başqa bir dünyada böyüdüyündən xəbərsizdir.

2000-ci ildən sonrakı dövrün Z nəsli adlandırılan uşaqlarının ailə və məktəbdaxili münasibətləri, üzləşdikləri problemlər, internet və sosial medianın bu problemlərin yaranmasında rolu ilə bağlı dünyada bir çox qurumlar araşdırmalar aparır.

PISA (Programme for İnternational Student Assessments - Şagird Nailiiyyətlərinin Beynəlxalq Qiymətləndirilməsi Proqramı) hələ bir neçə il öncəki hesabatında göstərirdi ki, 15 yaşadək şagirdlərin 84 faizinin sosial media hesabı var və onlar bunu özləri üçün çox faydalı sayırlar. Ancaq gün ərzində altı saatdan çox sosial mediaya vaxt ayıran bir uşağın həyatdan məmnunluğu, özgüvəni aşağı düşür, aqressiya və bullinqin hədəfinə çevrilmə təhlükəsi artır. Bu rejimin onların fiziki və psixi sağlamlığına necə təsir edəcəyini düşünməyə dəyər.

Məşhur MacArtur Fondunun tədqiqatçılarının qənaətinə görə, rəqəmsal texnologiyalar dövründə sosial media uşaqların kommunikativ əlaqələrinin yaranmasında, texniki bacarıqlarının inkişafında əvəzsiz rol oynayır. Onların fikrincə, uşağın "TikTok" üçün hazırladığı videoçarxlar onun həm texniki, həm də yaradıcılıq qabiliyyətini inkişaf etdirir.

Bütün bunları nəzərə alan ekspertlər uşaqları sosial mediada vaxt keçirən valideynlər üçün tövsiyələr hazırlayıblar. Onların fikrincə, ilk növbədə, uşağınızı sosial mediada üzləşə biləcəyi risklər haqqında məlumatlandırmalısınız. Övladınıza kiçik yaşlarından qohumlar və dostlar ilə daha çox vaxt keçirməyi öyrətmək lazımdır. Bu halda o, canlı ünsiyyətin, real dostluğun yaratdığı hisslərlə virtualdakı əlaqələr arasındakı fərqi özü anlayacaq. Onun hobbi və maraqlarına diqqət yetirin və sevdiyi fəaliyyətlə məşğul olması üçün şərait yaradın. Öz hobbiləri ilə məşğul olan uşaq sosial şəbəkələrə daha az vaxt ayıracaq. Uşağa onu da izah etmək lazımdır ki, sosial şəbəkələrdə keçirdiyi vaxtdan internetdəki lazımsız məlumatlara baxmaq üçün deyil, təhsil almaq, özünü inkişaf etdirmək məqsədilə istifadə etmək daha faydalıdır. Övladınızın sosial şəbəkələrdəki aktivliyinə nəzarət etməyə çalışın - bu, yeniyetmənin şübhəli qruplara qoşulmasının qarşısını alacaq. Yadınızdadırsa, bir neçə il əvvəl sosial şəbəkələrdə uşaqları intihara sövq edən ölüm qrupları və oyunlar çox məşhur idi. Əgər uşaq sosial mediada paylaşılan fotolara əsasən başqalarından daha pis yaşadığını düşünür, həyatından şikayətlənirsə, ona sosial şəbəkələrdəki bütün şəkillərin əslində real həyatı tam əks etdirmədiyini və çox vaxt ciddi redaktə edildiyini izah edin. Psixoloqlar deyirlər ki, yaxşı valideynlər həmişə övladlarının həyatında iştirak etməli, onlar üçün ciddi tərbiyəçi deyil, ən yaxın dost olmalıdırlar. Valideynlə övlad arasında etibarlı və mehriban münasibət olduqda, uşağı virtual reallıqdan real həyata sövq etmək, ona bir real dostun sosial şəbəkələrdəki minlərlə virtual izləyicidən daha yaxşı olduğunu izah etmək asandır. Bu yazıda sosial medianın uşaqlara təsiri ilə bağlı ümumi mənzərəni təsvir etməyə çalışdıq. Növbəti yazılarda sosial mediadakı fəaliyyətinə görə uşaqların, valideynlərin və cəmiyyətin üzləşdiyi ayrı-ayrı problemlərə yer ayıracağıq.

- Övladınıza kiçik yaşlarından qohumlar və dostlar ilə daha çox vaxt keçirməyi öyrətmək lazımdır.
- Onun hobbi və maraqlarına diqqət yetirin və sevdiyi fəaliyyətə məşğul olması üçün şərait yaradın.
- Övladınızın sosial şəbəkələrdəki aktivliyinə nəzarət etməyə çalışın.
- Uşağa onu da izah etmək lazımdır ki, sosial şəbəkələrdə keçirdiyi vaxtdan internetdəki lazımsız məlumatlara baxmaq üçün deyil, təhsil almaq, özünü inkişaf etdirmək məqsədilə istifadə etmək daha faydalıdır.
- Valideynlə övlad arasında etibarlı və mehriban münasibət olduqda, uşağı virtual reallıqdan real həyata sövq etmək, ona bir real dostun sosial şəbəkələrdəki minlərlə virtual izləyicidən daha yaxşı olduğunu izah etmək asandır.

Zemfira MƏMMƏDQIZI